# Vergi Məcəlləsində edilən əlavə və dəyişikliklər mövzusunda seminar-müşavirə

***10 saylı Ərazi Vergilər İdarəsi Qəbələ Mədəniyyət Mərkəzində vergi ödəyiciləri ilə görüş keçirmişdir. Görüş Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2019-cu il tarixdə imzaladığı "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanun və həmin Qanunun tətbiqinə dair ölkə Prezidentinin 25 dekabr 2019-cu ildə imzaladığı Fərmandan irəli gələn vəzifələrə həsr olunmuşdur.***



Görüşü açan 10 saylı Ərazi Vergilər İdarəsinin rəis müavini Rübail Mirzəyev bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasəti iqtisadiyyatın müasir tələblərinə uyğun təkmilləşdirilir.

Vurğulanıb ki, ədalətli rəqabət mühitinin formalaşdırılmasını təmin etmək üçün Məcəlləyə bir sıra stimullaşdırıcı maddələr əlavə olunub, qanunu bilərəkdən pozan, əvvəlcədən düşünülmüş şəkildə vergidən yayınmağa cəhd göstərən vergi ödəyicilərinə tətbiq olunacaq sanksiyalar sərtləşdirilib.

Sonra Vergilər Nazirliyinin şöbə rəisi Məmməd Quliyev Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərin əsas istiqamətləri barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, qarşıya qoyulan hədəflər bərabər və şəffaf fiskal mühitin təmin edilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, sahibkarların inzibatçılıq yükünün aşağı salınması, sahibkarlıq fəaliyyətinin təşviq olunması, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin və sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergitutma bazasının genişləndirilməsi, beynəlxalq vergitutma və məlumat mübadiləsi üzrə öhdəliklərin yerinə yetirilməsi kimi məqsədləri əhatə edir.

Bildirilib ki, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması istiqaməti vətəndaşların rifah halının yaxşılaşdırılması məqsədi daşıyır. Belə ki, quş əti satışının ƏDV-dən azadolma müddətinin daha 4 il müddətinə uzadılması, habelə heyvan ətinin satışının 4 il ərzində ƏDV-dən azad edilməsi, fiziki şəxslər tərəfindən vergidən azad olunmaqla təqdim edilən yaşayış sahəsində azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olma müddətinin 3 təqvim ilinə endirilməsi, fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahələrinin təqdim edilməsi zamanı yaşayış sahəsinin 30 kvadratmetrinin istisnasız olaraq vergidən azad edilməsi bu qəbildən olan dəyişikliklərdir.

Sonda görüş iştirakçılarının sualları cavablandırılıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Daşınmaz əmlakın icbari sığortası vətəndaşlar üçün etibarlı təminatdır

***Gündəlik olaraq bu və ya digər səbəblərdən kiminsə evinin, əmlakının qismən və ya tamamilə yanması ilə bağlı xoşagəlməz xəbərlər alırıq. Mülk sahibləri evlərinə dəymiş ziyanı dilə gətirsələr də heç bir yerə müraciət edə bilmirlər. Çünki yaşayış mənzilləri və ya evlərini sığortalatmağa maraq göstərməyiblər və ya bu məsələyə ciddi yanaşmayıblar. Son illər bu kimi halların artması artıq hər kəsi narahat etməyə başlayıb. Amma bununla bağlı artıq vəziyyət dəyişib.***

Belə ki, ötən illərlə müqayisədə yaşayış evləri və mənzillərin icbari sığortalanmasında artım müşahidə edilir. Bunun bir səbəbi isə 2011-ci ilin iyunun 24-də "İcbari sığortalar haqqında" Qanun qəbul edilməsidir. 2012-ci ilin yanvarın 1-dən tətbiqinə başlanılan qanun layihəsi hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, eləcə də avtomobillərin icbari qaydada da sığortalanmasını nəzərdə tutur.

Daşınmaz əmlakın icbari sığortası "İcbari sığortalar haqqında" Qanununun I fəslində nəzərdə tutulub. Daşınmaz əmlakın icbari sığortası daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Bu məqsədlər üçün hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri, binalarının və mənzillərin, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının sığortası icbaridir.

Yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, o cümlədən bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir.

Qanunda yaşayış evləri və mənzillər üçün sığorta tarifi sığorta məbləğinin 0,2%-i həcmində müəyyən edilib. Beləliklə, Bakı şəhərində sığortanın miqdarı 25 min manat, ilkin ödənişin məbləği isə 50 manat, Sumqayıt, Gəncə, Naxçıvan şəhərlərində sığortanın miqdarı 20 min manat, ilkin ödənişin məbləği 40 manat, digər yaşayış məntəqələri və bölgələrdə isə sığortanın miqdarı 15 min manat, ilkin ödənişin məbləği 30 manatdır.

Ancaq qanunvericiliklə icazə verilməyən yerlərdə inşa edilən, sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi, tikintisi başa çatmayan və qəzalı vəziyyətdə olan daşınmaz əmlak icbari sığortaya cəlb olunmur.

Yaşayış evləri və mənzillərin icbari sığortalanmasına isə heç də bütün sığorta şirkətləri daxil edilməyib. Belə ki, ölkədə fəaliyyət göstərən 12 sığorta şirkəti İcbari Sığorta Bürosunun iştirakçı sığortaçıların reyestrinə daxil edilib. Bunlar Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti, "Ateşgah Sığorta", "Standard Insurance", "AtaSığorta", "Xalq Sığorta", "Paşa Sığorta", "AXA MBASK", "AzSığorta", "Alfa Sığorta", "Meqa Sığorta", "İpək Yolu Sığorta", "Azərbaycan Sənaye Sığorta"dır.

# Turizm sektoru zəngin imkanlara malikdir

***Qəbələ rayonunun turizm sektoru təbiət mənzərələri, tarixi-mədəniyyət abidələri və müasir turizm kompleksləri baxımından zəngin imkanlara malikdir.***

***Son illər Azərbaycanda həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafına, makroiqtisadi göstəricilərin davamlı artımına səbəb olub. Bu nailiyyətlərin əldə edilməsində turizm sənayesinin də müəyyən payı vardır. Bölgəmizin coğrafi mövqeyi, təbiəti, tarixi, iqlimi, abidələri, mətbəxi, xalqımızın zəngin mədəniyyəti və digər amillər turistlərin rayonumuza böyük axınla səfər etməsinə geniş yol açib.***



Rayonumuzda 16 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərir. Bu obyektlərin birdəfəlik tutumu 2353 yerdir. Ötən il otel və mehmanxanalarda 27129 çarpayı-yerdən istifadə olunub. Bir gün qalmaq üçün orta qiymət 85.4 manat təşkil edib. Turistlərin qalma müddəti 1-2 gün olub.

2019-cu ildə Qəbələ rayonundakı otel və mehmanxana tipli müəssisələrə 186431nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 65592 nəfəri və ya 35.2 faizi Azərbaycan, 120839 nəfəri və ya 64.8 faizi xarici ölkə vətəndaşları olub.

Əcnəbi turislər arasında Səudiyyə Ərəbistanının vətəndaşları üstünlük təşkil edib. Ümumiyyətlə ən çox turist Birləşmiş Ərəb Əmirliklərindən, Küveytdən, Bəhreyndən, Qətərdən, Omandan, Rusiyadan, Hindistandan, İsraildən, Pakistandan və Çindən gəlib. Qəbələyə gələn əcnəbi turistlərin 29096 nəfəri isə digər öikələrin vətəndaşları olub.

Ötən dövrdə turizm obyektlərində 1225 işçi çalışıb. Onlardan 238 nəfərini qadınlar, 105 nəfərini turizm və otelçilik üzrə təhsil alan mütəxəssislər, 36 nəfərini isə əcnəbi işçilər təşkil edir.

**Lətafət SALMANOVA,**
**rayon statistika idarəsinin aparıcı məsləhətçisi.**

# Alman portalı "Chenot Palace Qəbələ" istirahət və sağlamlıq mərkəzindən yazır

***Almaniyanın "Redspa" internet portalında "Chenot Palace Qəbələdə müalicə" sərlövhəli məqalədə Azərbaycanın Qəbələ rayonunda yerləşən "Chenot Palace Qabala" istirahət və sağlamlıq mərkəzindən söz açılır.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycana gələn turistlərə ilk öncə paytaxt Bakı şəhərinin UNESKO-nun Dünya İrsi Siyahısına daxil edilmiş İçərişəhər ilə tanış olmaq tövsiyə edilir. Azərbaycanda gəzməli-görməli yerlərin Bakı şəhəri ilə məhdudlaşmadığı, şəhərdən cəmi üç saatlıq məsafədə öz təbiətinin gözəlliyi ilə buraya gələn qonaqları heyran edən Qəbələ şəhərinin yerləşdiyi qeyd olunur.

2016-cı ildə burada istifadəyə verilən "Chenot Palace Health und Wellness Hotel" sağlamlıq və istirahət mərkəzinin 6 min kvadratmetrlik sahəsi, 72 qonaq otağı, üç villa və xüsusi ozon vannası olan fərdi Spaya malik olduğu bildirilir. Turistlərin istirahət mərkəzindən kənarda yerləşən Qəbələ rayonu və Qafqaz dağlarının təbii gözəllikləri, şəlalələri ilə tanış olmaq imkanının olduğu da vurğulanır.

Məqalədə "Chenot" mərkəzləri haqqında məlumat verilir. İlk "Chenot" mərkəzinin 1974-cü ildə Kann şəhərində açıldığı diqqətə çatdırılır.

# 116 saylı Qəbələ seçki dairəsi üzrə 44 min 244 seçici qeydiyyata alınıb

Fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərə hazırlıq işləri 116 saylı Qəbələ seçki dairəsində dairə seçki komissiyası tərəfindən uğurla davam etdirilir.

Dəqiqləşdirilmiş son məlumata görə 54 seçki məntəqəsi üzrə 44 min 244 seçici qeydiyyata alınıb. Onlardan 69 nəfəri ilk dəfə səs verəcək vətəndaşlardır. Seçicilərin tam şəffaf və demokratik şəraitdə səs verməsi üçün bütün məntəqələrdə lazımi işlər görülüb.

Seçki məntəqələri lazımi texniki avadanlıqlar və metodiki vəsaitlərlə, fasiləsiz rabitə və elektrik sistemi ilə təchiz olunub. Vətəndaşların öz seçimlərini sərbəst şəkildə etmələri üçün səsvermə kabinələri quraşdırılıb, seçici siyahıları və məlumat lövhələri asılıb. Hazırda məntəqə üzvləri tərəfindən bildirişlər paylanır. Seçki günü səsvermənin gedişini internet vasitəsilə onlayn izləmək üçün məntəqədə veb-kamera da quraşdırılıb.

Namizədlərin təşviqat plakatlarının bərabər səviyyədə yerləşdirilməsi üçün məntəqənin yaxınlığına lövhə qoyulub.

Öz adının seçici siyahısında olub-olmadığını yoxlamaq istəyən vətəndaşlar, şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən seçicilər müraciət etdikdə komissiya üzvləri onlara lazımi kömək göstərir.

Seçki məntəqəsində aparılan hazırlıq işlərinin vəziyyəti onu deməyə əsas verir ki, səsvermə günündə heç bir çətinlik yaşanmayacaq, vətəndaşlar istədikləri namizədə demokratik, azad və şəffaf şəkildə səs verə biləcəklər.

**Rais RƏŞİDOV.**
**"Qəbələ"**

# 15 minədək sakin müraciət edib

Qəbələ Müalicə və Diaqnostika Mərkəzi Publik hüquqi şəxsə müraciət edən vətəndaşların məmnunluğunu təmin etmək üçün xəstəxanada 3 yerdə qeydiyyat mərkəzi yaradılıb. Ailə Sağlamlıq Mərkəzinə müraciət edən sakin əvvəlcə ailə həkimi tərəfindən qəbul olunur. Sonra xəstə müayinələrdən keçmək üçün müvafiq şöbələrə göndərilir, ehtiyac yaranarsa ixtisaslı həkimlərə yönləndirilir.

Yanvarın əvvəlindən bu günədək xəstəxanaya 14 min 815 nəfər müraciət edib. Onlardan 151 nəfəri stasionar, 6 min 541 nəfər isə ambulator müalicəyə cəlb olunub. Gün ərzində xəstəxanaya orta hesabla 350-400 nəfərədək vətəndaş müraciət edir.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**